Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Fevral 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

## ÜMUMİ DAXİLİ MƏHSUL 5 FAİZ, QEYRİ-NEFT SEKTORUNDA İSƏ 12 FAİZDƏN ÇOX ARTIB.

Bu ilin yanvar ayının nəticələri ümidvericidir. Ümumi daxili məhsul 5 faiz, qeyri-neft sektorunda isə 12 faizdən çox artıb. Bu, ümidverici göstəricidir və onu göstərir ki, biz indi yavaş-yavaş öz iqtisadi templərimizi bərpa edirik. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə bizim ümumi daxili məhsulumuz 7 milyard dollar idi, keçən ilin yekunlarına görə isə bu rəqəm 72 milyard dollardır. Yəni, bu, 20 ildə iqtisadiyyatımızın inkişafının əsas göstəricisidir. Bizim 2003-cü ildə valyuta ehtiyatlarımız 1,6 milyard dollar idisə, bu gün bu, artıq 69,5 milyard dollardır və biz bu 20 il ərzində görün öz valyuta ehtiyatlarımızı nə qədər artırmışıq.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 14 fevral 2024-cü il tarixində keçirilmiş andiçmə mərasimindəki nitqindən**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ______ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ______ səh. 10

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat ______ səh. 13

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ______ səh. 15

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ______ səh. 17

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2024-cü ilin yanvar ayı ərzində 1,8 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar ayında qeyri-neft sektoru üzrə ixrac 222 milyon ABŞ dolları təşkil etmişdir

2024-cü ilin yanvar ayı ərzində Azərbaycanın ümumi ixracı **1,8 milyard** ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə **222 milyon** ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə **9,5%** artaraq **70,4 milyon** ABŞ dollarına, qeyri-yeyinti məhsulları üzrə ixrac isə **151,6 milyon** ABŞ dollarına bərabər olub.

2024-cü ilin ilk ayı ərzində bitki və heyvan mənşəli piylər və yağların ixracı 31,9%, meyvə-tərəvəz ixracı 21,2%, alüminium və ondan hazırlanan məmulatların ixracı isə 17,4% artıb.

Cari ilin yanvar ayı ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **10,5%** artaraq **74,1 milyon** ABŞ dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər **15,4 milyon** ABŞ dolları təşkil edib.

2024-cü ilin yanvar ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**75,6 milyon** ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (**47,5 milyon** ABŞ dolları) ikinci və Gürcüstan (**25,1 milyon** ABŞ dolları) üçüncü olub.

2024-cü ilin yanvar ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (**28,8 milyon** ABŞ dolları) birinci, xurma (**17,1 milyon** ABŞ dolları) ikinci və pomidor (tomat) (**16,6 milyon** ABŞ dolları) üçüncü olub.



# 2024-CÜ İLİN YANVAR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2024-CÜ İLİN YANVAR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2024-CÜ İLİN YANVAR AYI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2024 İXRAC İCMALI fevral

- Aqrar məhsullar
- Aqrar-sənaye məhsulları

2023/2024

+10,5%

74,1 mln $



2023/2024

+22,5%

58,7 mln $

15,4 mln $

2023/2024

# 2024-CÜ İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2024-CÜ İLİN YANVAR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2024 | 2023 |
|---|---|---|
| Elektrik enerjisi | 28,8 | 72,4 |
| Xurma | 17,1 | 10,8 |
| Tomat (pomidor) | 16,6 | 10,5 |
| Polimerləşmədə ilkin formalı maddələr | 12,9 | 6,4 |
| Pambıq mahlıcı | 10,6 | 15,5 |
| Karbamid | 10,4 | 9,4 |
| Meşə fındığı | 10,2 | 11,8 |
| PE İlkin formalı propilen sopolimerləri | 8,9 | 5,3 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 8,4 | 1,4 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2024-cü ilin yanvar ayı üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “My Fruit” MMC, Muradova Sahibə Səlimət qızı, “P-Aqro” MMC, “Soil Boons” MMC, “Ümüd 059” MMC, “EA-Fruits” MMC, “Gözəl Təbiət” MMC, “Binə Aqro” QSC, “STP Global Cable” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Azərenerji” ATSC, “Socar Polymer” MMC, “Azəralüminium” MMC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərbaycan Hava Yolları” QSC, “İqlim Elmi-İstehsalat Müəssisəsi” MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2024-CÜ İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI fevral



# 2024-CÜ İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

**(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2024
İXRAC İCMALI
fevral



3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) **1,4 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar ayında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 42 ölkəsinə **1,4 milyon ABŞ dolları** dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 75 faizini təşkil edib.

2024-cü ilin yanvar ayı ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə **367,3 min ABŞ dolları** ilə Birləşmiş Krallıq, **335,3 min ABŞ dolları** ilə Lüksemburq, **74,2 min ABŞ dolları** ilə BƏƏ, **71 min ABŞ dolları** ilə Almaniya və **69,5 min ABŞ dolları** ilə Pakistan qərarlaşıb.

# 2024-CÜ İLİN YANVAR AYINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 1,4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ PEYK TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2024
İXRAC İCMALI
fevral



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 367,3 min $ | Birləşmiş Krallıq |
| 335,3 min $ | Lüksemburq |
| 74,2 min $ | BƏƏ |
| 71 min $ | Almaniya |
| 69,5 min $ | Pakistan |

# 4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2024-cü ilin yanvar ayı ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə 187,9 milyon manatlıq əməliyyat aparılıb.

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2024-cü ilin yanvar ayında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **187,9 milyon** manat dəyərində əməliyyat aparılıb.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2024 İXRAC İCMALI fevral

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Yanvar | 204,7 | 171,5 | 187,9 |
| Fevral | | | |
| Mart | | | |
| Aprel | | | |
| May | | | |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **204,7 mln** | **171,5 mln** | **187,9 mln** |

Mərkəzi Bankın təqdim etdiyi statistika əsasında

# 6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2024-cü ilin fevral ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 22,8 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2024-cü ilin fevral ayı ərzində **158 müraciət** daxil olub. Müvafiq dövr ərzində **372 ədəd sertifikat** (188 ədəd mənşə, 5 ədəd baytarlıq, 161 ədəd fitosanitar, 18 ədəd CİTES) təqdim edilib.

2024-cü ilin fevral ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **22,8 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidi yağı, pomidor, dondurma, dondurma vaflisi, pendir, kərə yağı, qənnadı məmulatları, limonad, nar, alma, alma, qarışıq şirələr, çaxır, dondurulmuş Xəzər kilkəsi, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların kürüsü, dondurulmuş əti, iribuynuzlu heyvanların duzlanmış mədəsi,

duzlanmış qoyun bağırsağı, əridilmiş heyvan piyi, tibbi zəli, su nasosu, ferrosilisium, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, pambıq mahlıcı, pomidor, süd məhsulları, polad armatur yaymasının ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, Rusiya, Türkiyə, Ukrayna, Fransa, Almaniya, Səudiyyə Ərəbistanı, Əfqanıstan, Suriya, Vyetnam, Türkmənistan, ABŞ, Avstraliya, Kanada, İsrail, Malayziya, Polşa, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, BƏƏ üstünlük təşkil etmişdir.



# 2024-CÜ İLİN FEVRAL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI fevral



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR
(faizlə)



## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN
## “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
“İxrac İcmalı” jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat